**Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi**

**Bakı Qızlar Universiteti**

*Bakı Qızlar Universitetinin*
*Elmi Şurasının ______*
*2023-cü il tarixli iclasının (Protokol №____)*
*qərarı ilə təsdiq edilmişdir.*

# Bakı Qızlar Universiteti Tələbə Gənclər Təşkilatının Əsasnaməsi

**BAKI -2023**

**Bakı Qızlar Universiteti Tələbə Gənclər Təşkilatının**

**Əsasnaməsi**

## I. Ümumi müddəalar

1.1. Bakı Qızlar Universitetində (bundan sonra Universitet) fəaliyyət göstərən Tələbə Gənclər Təşkilatı (bundan sonra "Təşkilat") tələbələrin ümumi maraqlarını və könüllülük prinsiplərini əldə rəhbər tutaraq onların hüquq və maraqlarının müdafiəsini, intellektual inkişafını, asudə vaxtının səmərəli keçirilməsinin təşkilini təmin etmək, onların təhsil müəssisəsinin ictimai həyatında fəallığını artırmaq, habelə qruplar və fakültələr arasında sıx əlaqələr yaratmaq məqsədi ilə təsis edilir.

1.2. Təşkilat Azərbaycan Respublikasının Konstitusiyasına, mövcud qanunvericiliyinə ,Universitetin Nizamnaməsinə və bu Əsasnaməyə uyğun olaraq fəaliyyət göstərir.

1.3. Təşkilat təhsillə və tələbələrin problemləri ilə bağlı məsələlərin operativ həllinə nail olmaq üçün dövlət orqanları, qeyri-hökumət və beynəlxalq təşkilatlarla qarşılıqlı əlaqədə fəaliyyət göstərir.

1.4. Təşkilat Universitetdə fəaliyyət göstərən müstəqil tələbə gənclər təşkilatıdır.

## II. Təşkilatın əsas məqsəd və vəzifələri

2.1. Təşkilatın əsas məqsədi dövlət gənclər siyasətinin həyata keçirilməsi istiqamətində tələbələrin maraqlarını təmsil və müdafiə etmək, respublikanın ictimai-siyasi, mədəni, sosial, iqtisadi həyatında onların fəal iştirakını təmin etməkdir.

2.2. Təşkilatın əsas vəzifələri aşağıdakılardır:

2.2.1. tələbələrin hüquqlarının müdafiəsinin təmin edilməsi;

2.2.2. tələbələrin problemlərinin həlli istiqamətində işin həyata keçirilməsi;

2.2.3. tələbələr arasında maarifləndirmə işinin aparılması;

2.2.4. tələbələrin iştirakı ilə müsabiqələrin, seminarların, festivalların, forumların, toplantıların, sərgilərin, aksiyaların, dəyirmi masaların, elmi konfransların, təlim kurslarının, kütləvi təbliğat kompaniyalarının, diskussiya klublarının,müzakirələrin, simpoziumların, görkəmli şəxslərlə görüşlərin və digər tədbirlərin təşkil edilməsi;

2.2.5. tələbə və gənclərlə bağlı həyata keçirilən tədbirlər, habelə respublikanın ictimai-siyasi, sosial-iqtisadi və mədəni həyatında baş verən hadisələr barədə məlumatların çatdırılması məqsədi ilə qəzet və dərgilərin nəşr olunması;

2.2.6. tələbələrin maraq və meyillərini, intellektual inkişafını təmin etmək üçün dərnəklərin, studiyaların, klubların, kursların və digər xidmətlərin təşkil edilməsi;

2.2.7. tələbələrin problemlərinin öyrənilməsi və müvafiq qərarların qəbul olunması üçün Universitet Elmi Şurasına məsələlərin çıxarılması, rektorluq qarşısında vəsatətin qaldırılması;

2.2.8. təhsil alan tələbələrin sayı, onların dərsə davamiyyəti, nizam-intizamı, yataqxana ilə təminatı və sair barədə müvafiq kafedra və fakültələrdən məlumatların alınması;

2.2.9. qanunvericiliklə qadağan edilməyən digər vəzifələrin həyata keçirilməsi.

**III. Tələbələrin Təşkilatda iştirakı**

3.1. Universitetin tələbələləri təhsil aldıqları müəssisə üzrə Təşkilatın fəaliyyətində iştirak etməkdə bərabərhüquqludurlar və aşağıdakı hüquqlara malikdirlər:

3.1.1. Təşkilatın hər hansı seçkili orqanını seçmək, təhsilinin axırıncı ilində olan tələbələr istisna olmaqla, seçilmək;

3.1.2. öz hüquqlarının müdafiəsinə kömək göstərilməsi üçün Təşkilata müraciət etmək;

3.1.3. Təşkilatın fəaliyyəti ilə bağlı məlumat əldə etmək;

3.1.4. Təşkilatın təşkil etdiyi tədbirlərdə iştirak etmək;

3.1.5. müxtəlif layihə təklifləri ilə çıxış etmək;

3.1.6. Təşkilatın nəzdində klub yaratmaq.

**IV. Təşkilatın İdarə Heyəti**

4.1. Təşkilatın İdarə Heyəti onun fəaliyyətinə ümumi rəhbərliyi həyata keçirən kollegial orqandır.

4.2. İdarə Heyətinin tərkibi aşağıdakı qaydada müəyyən edilir:

4.2.1. Təşkilatın sədri və onun tələbələrlə iş, fəaliyyətlər və ictimaiyyətlə əlaqələr üzrə müavinləri;

4.2.2. fakültə sədrləri və onların müavinləri.

4.3. İdarə Heyətinin iclasları ayda 1 (bir) dəfədən az olmayaraq keçirilir və aşağıdakı səlahiyyətlərə malikdir:

4.3.1. Təşkilatın fəaliyyət planlarını və layihələrini təsdiq edir;

4.3.2.. Təşkilatın daxilində klubların yaradılmasına dair qərar qəbul edir;

4.3.3. Digər təşkilati məsələlər üzrə qərarlar qəbul edir.

4.4. İdarə Heyətinin iclasları onun üzvlərinin yarıdan çoxu (50%+1) iştirak etdikdə səlahiyyətli sayılır və qərarlar sadə səs çoxluğu ilə qəbul edilir.

4.5. İdarə Heyətinin növbədənkənar iclası İdarə Heyətinin üzvlərinin 2/3-nin tələbinə və ya Təşkilatın sədrinin təklifinə əsasən çağırıla bilər.

4.6. İdarə Heyətinin fəaliyyətinə Təşkilatın sədri rəhbərlik edir.

4.7. Təşkilatın sədri:

4.7.1. Təşkilatın fəaliyyətinə rəhbərlik edir, icraedici və sərəncamverici funksiyalar daşıyır;

4.7.2. Təşkilatı təmsil edir və onun adından çıxış edir;

4.7.3. İdarə Heyətinin iclaslarına rəhbərlik edir;

4.7.4. İdarə Heyətinin qərarlarının icrasını təmin edir;

4.7.5. Müəyyən olunmuş qaydada  digər funksiyaları həyata keçirir;

4.7.6. öz fəaliyyəti ilə bağlı tələbələr qarşısında hesabat verir.

4.8. Təşkilatın sədri olmadıqda onun səlahiyyətlərini müavinlərindən biri həyata keçirir.

**V. Klublar**

5.1. Klub tələbələrin ortaq maraqlar ətrafında könüllü birləşməsidir.

5.2. Klub Universitetin tələbə kontingentinin ən azı 1%-dən çoxunun (tələbə sayı 1000 nəfərdən az olan təhsil müəssisəsində 10 nəfərdən çoxunun) Təşkilatın İdarə Heyətinə ərizəsi və İdarə Heyətinin müsbət rəyi əsasında yaradıla bilər.

5.3. İdarə Heyəti klubun fəaliyyətinə ümumi rəhbərliyi həyata keçirir.

5.4. İdarə Heyətinin fəaliyyətinə klubun sədri rəhbərlik edir.

5.5. İdarə Heyəti daxilində bütün qərarlar səsvermə yolu, sadə səs çoxluğu ilə qəbul edilir.

5.6. Kluba üzvlərin qəbuluna nəzarət Təşkilatın sədrinin ictimaiyyətlə əlaqələr üzrə müavini tərəfindən aparılır.

5.7. Klubun fəaliyyətinə nəzarət Təşkilatın sədrinin fəaliyyətlər üzrə müavini tərəfindən aparılır.

**VI. Fakültə təşkilatının strukturu**

6.1. Fakültə təşkilatı Təşkilatın struktur vahididir.

6.2. Fakültə təşkilatının strukturuna aşağıdakılar daxildir:

6.2.1. fakültə sədri;

6.2.2. fakültə sədrinin növbələr üzrə müavinləri;

6.2.3. kurs rəhbərləri;

6.2.4. fakültədə təhsil alan tələblərin sayı çox olduğu təqdirdə, koordinatorlar;

6.2.5. qrup rəhbərləri.

6.3. Fakültə təşkilatının struktur vahidləri üzrə təyinatları fakültə sədri tərəfindən həmin struktur vahidinin əhatə və təmsil etdiyi tələbələrin rəyinin nəzərə alınması şərti ilə həyata keçirilir.

6.4. Fakültə təşkilatının yuxarıda göstərilmiş struktur vahidlərinin nümayəndələrindən ibarət kollegial orqanı – İdarə Heyəti formalaşdırılır.

6.5. İdarə Heyəti fakültə təşkilatının fəaliyyətinə ümumi rəhbərliyi həyata keçirir.

6.6. İdarə Heyətinin fəaliyyətinə fakültə sədri rəhbərlik edir.

6.7. İdarə Heyəti daxilində bütün qərarlar səsvermə ilə, sadə səs çoxluğu ilə qəbul edilir.

6.8. İdarə Heyətinin iclasları ayda 1 (bir) dəfədən az olmayaraq keçirilir.

**VII. Seçki prosesi**

7.1. Təhsilinin axırıncı ilində olan tələbələr istisna olmaqla hər bir tələbə təhsil aldığı müəssisənin Təşkilat sədrliyinə və ya sədr müavinliyinə namizədliyini irəli sürə bilər.

7.2. Təşkilat sədrliyinə irəli sürülmüş namizədlərə həmin universitetin hər bir tələbəsi səs verə bilər.

7.3. Həm Təşkilat sədrliyinə, həm də fakültə sədrliyinə namizədlər öz müavinləri ilə birlikdə namizədliklərini irəli sürməlidirlər.

7.4. Azərbaycan Tələbə Gənclər Təşkilatları İttifaqına üzv olan Təşkilatların İdarə Heyətlərinin üzvləri müşahidəçi qismində cəlb olunur.

7.5. Tələbələr seçkidən 1 həftə öncə Azərbaycan Tələbə Gənclər Təşkilatları İttifaqına müraciət etməklə müşahidəçi qismində cəlb oluna bilər.

7.6. Həm Təşkilat sədri və müavini, həm də fakültə sədri və müavini vəzifəsinə bir namizəd 2 (iki) il müddətinə seçilir.

**VIII. Təşkilatın fəaliyyətinə nəzarət**

8.1. Universitetin dekanlıqları və rektorluğu həftəlik hesabatlar vasitəsilə Təşkilatın fəaliyyətinə nəzarət edir.

8.2. Təşkilat təhsil müəssisəsindən kənar bütün fəaliyyətini Universitetin rektorluğunu məlumatlandırmasıdır.

**IX. Təşkilatın əmlakı və fəaliyyətinin təşkili**

9.1. Təşkilatın fəaliyyət göstərməsi üçün Universitetin ayırdığı sahə (otaq) və texniki avadanlıq Təşkilatın istifadəsinə verilir.

9.2. Təşkilatın fəaliyyəti Universitetin ayırdığı maliyyə vəsaitləri, həmçinin qrantlar, sponsorlar, könüllü ianələr və qanunla qadağan olunmamış digər mənbələr hesabına həyata keçirilir.

**X. Təşkilatın fəaliyyətinə xitam verilməsi**

10. Təşkilatın fəaliyyətinə xitam verilməsi mövcud qanunvericilikdə nəzərdə tutulmuş qaydada həyata keçirilir.

**XI. Yekun müddəalar**

11.Bu Əsasnamədə nəzərdə tutulmayan məsələlər mövcud qanunvericiliklə tənzimlənir.